# VƏTƏNƏ BƏND MƏDİNƏ GÜLGÜN

**"Bu elə-obaya qaranquş kimi –**
**Həmişə baharda gələcəyəm mən..."**

Qəribədir, Mədinə Gülgün daha çox, baharda xatırlanan şairlərdəndir. O, ahıl yaşlarında da daha çox bahardan, yazdan yazırdı. Yaşıdları, müasirləri onu daha çox yaz aylarında görərdilər. Ən çox da sərgi salonlarında, muzeylərdə, sənətkarların yubiley törənlərində görünərdi - obrazlarıyla bir dam altda yaylayıb-qışlayan bu şair xanım. Özü qışda doğulsa da, tikəsi bahardan verilmişdi.

... Yəqin, bir az şairanə təhqiqatla baxsaq, son on səkkiz ilin baharlarında da onun ruhunu yan-yörəmizdə - sərgi salonlarında, muzeylərdə, yubiley törənlərində görmüş olardıq. Qələm dünyası isə...

... Hələ tale qələmi

Hə, bu gözəl şairin öz qələmindən öncə, bir az tale qələmindən danışaq.

Bakıda doğulub Bakıda dəfn olunsa da, bu şairin "coğrafi pasport"una çox şəhər və qəsəbələrin adı düşüb. Olumu 17 yanvar 1926, ölümü 17 fevral 1992.

Sovetlərin "gözünün işığı" sinfində - fəhlə ailəsində doğulsa da, öz iç işığı ilə ziyalanıb, hələ Pedaqoji İnstitutdan əvvəl, zaman "müəllim"in həyat auditoriyasında püxtələşib, ziyalılaşıb. Dünyəvi "səbəb-nəticə" fəlsəfəsinə "sığışmayan" həmin sovet səfsəfəsinin hansı paraqrafınasa əsasən, 1938-ci ildə bu ailə Cənubi Azərbaycana - Ərdəbilə, sonra isə oradan Təbrizə köçüb. Yeniyetmə Mədinə Təbrizdə toxuculuq karxanasında ilk əmək fəaliyyətinə başlayıb. Gənc yaşından Cənubi Azərbaycan demokratik hərəkatına qoşulub. Bir qədər sonra Təbriz Dram Teatrında çalışıb. "Azərbaycan" qəzetinin xüsusi müxbiri olub. 1945-1946-cı illər Cənubi Azərbaycan Milli Azadlıq Hərəkatının fəal iştirakçısı olub və sonralar mübariz, vətənpərvər şeirlərilə bütün ömrü uzunu bu inqilabın carçısı kimi çıxış edib.

Bu Vətən - o Vətən, bu yurd - o yurd...

Parçalanmış bu Vətəndən o Vətənə ailəsi köçüb, özü köçüb - gözü, söhbəti-sözü isə burada qalıb Mədinə Gülgünün. Köç zamanı nə yaşı vardı hələ - vur-tut, on ikicə.

Və bir gecə xəyalından Bakı keçir, özü də necə keçir! Könlü "Qız qalası"na köçür. Ürəyinin nisgil bağları dağlanır, qulaqlarında "Xəzərin qucağındakı - ey əziz, mehriban Bakı!" kimi nəğmələr sədalanır. Bayır şəhərin ağuşundakı inci - İçərişəhər həsrəti qubarlanır qanının qaynamalarında. Bu yeni yurdda, yeniyetmə yaşında "bir ölməz sevda dolanır başında». Dünənədək bu dünyaya uşaq-uşaq, küskün-küskün baxan bu qız o gecədən gülgünləşib, misra-misra düşünməyə başlayır. Gecəyarı yatağından Dədə Qorqud üslubuyla uru durur, pəncərədən Məhsətinin rübabıyla - duru baxır. Göy üzündə gördüyünə bu ana qədərki anlağının tələbilə daha Ay yox, ustad Vurğun təbi ilə - "göylərin şamı" söyləyir. Düşdükləri bu kasıb daxmanın taybatay açılı pəncərəsini - tilişkəli, kələkötür Təbriz aynasını Bakıdakı sığal-ovallı aynalarına dadaş sayır, bağçadakı meynələri Mərdəkan bağlarındakının eyni bilir. Bu duyğulardan, sonralar yazacağı bir həsrət şeirinə tədarük edir:

Biz ki özgə deyilik -
Bölünək bölük-bölük.
Bir obayıq, bir elik -
Bakıdan Təbrizəcən.
Vüsal olsa, nə dərdim,
Quşlarla bəhs edərdim,
Mən piyada gedərdim -
Bakıdan Təbrizəcən...

**Vətən vətənsevərləri sevər...**

Mədinə Gülgün yaradıcılığı ilə tanış olduqca, vətənpərvərliyin bizə tanış hər elementini görə, hər notunu eşidə bilərik.

Bu qos-qoca məmləkətin ağbirçək ana-şairi idi Mədinə Gülgün - milli şadlıqlarımıza ədəbi sağlıqlar, qəm-kədərlərimizə bədii ağılar deyərdi. 20 Yanvar acısı onun misralarında daha ərşə qalxır, daha uzaqlara yayılırdı.

Onun kitabları çoxdur. Özü də yalnız qalın deyil, qalan kitablardır bunlar. 1950-ci ildən başlayıb, ömrünün sonuna qədər 20-dən çox kitab bağladı Mədinə Gülgün. Vətənə xidmət və sevgi mücahidi olan bu zərif xanım üç dəfə Vətənin Fəxri fərmanı, "Şərəf Nişanı", "Əmək veteranı" və digər orden-medallarla təltif edildi. Kitablarının birindən verdiyimiz aşağıdakı iki bənd bu Vətənəbənd şairin bütün kitabları haqda kommentatorluq da edə bilər, zənnimizcə:

Mənə söyləməyin; az alışıb-yan,
İnanın, daşı da ağladar hicran.
Dağların ahıdır - o çən, o duman,
Dağların dərdini dumanlar bilər.
Məni sorğulara tutma sən, əbəs,
Arzumu qəlbimdə, baxışımda gəz.
Könlümü hər naşı oxuya bilməz -
Onu dünya görmüş insanlar bilər!

Deyirlər, şairlərin yazmadıqları yazdıqlarından qat-qat çoxdur. Yalandırsa da, çox gözəl, istedadlı yalandır. Və təəssüf ki, belə xoş yalanlar az deyilib - bütün ömrü boyu dünyamız haqda bəs qədər yazan, deyən şairlər barədə...[1]

***Tahir Abbaslı***

***Mədəniyyət.- 2011.- 19 yanvar.- S. 14.***

[1] https://medeniyyet.info.az/page/news/622/Vetene-bend-Medine-Gulgun.html